TÜRKİYƏ

*Son günlərdə Rusiya Federasiyasının Yekaterinburq şəhərində azərbaycanlılara qarşı baş verən hadisələr ictimaiyyətin diqqətini cəlb edib. Sosial şəbəkələrdə yayılan görüntülərə və məlumatlara əsasən, bu şəhərdə yaşayan bir qrup azərbaycanlıya qarşı ayrı-seçkilik, təhqir və zorakılıq halları qeydə alınıb. Hadisələr şəxsi münaqişə kimi yox, daha geniş kontekstdə qiymətləndirilir.*

# Rusiya dəyişkən siyasət nümayiş etdirir



Bu cür hadisələr Rusiyada azsaylı xalqlara qarşı artan etnik ayrı-seçkilik və rus üstünlüyü ideologiyasının birbaşa nəticəsidir.

Rusiyanın çoxmillətli və çoxdinli ölkə olmasına baxmayaraq, bəzi dairələr tərəfindən bu ideya dövlət və cəmiyyət səviyyəsində dolayısı ilə təşviq olunur. Polisin Qafqaz və Mərkəzi Asiya xalqlarına qarşı seçici nəzarəti, mediada neqativ təbliğat və hüquq bərabərsizliyi bu tendensiyanın bir hissəsidir. Artıq Rusiya postsovet məkanı üçün real təhlükə mənbəyinə çevrilib. Kreml bütün istiqamətlər üzrə postsovet ölkələrini açıq-aşkar təhdid edir. Bu təhdidlərin arxasında Rusiyanı haqlı çıxara biləcək hər hansı səbəb mövcud deyil və bu, o deməkdir ki, Rusiya siyasi dairələri MDB məkanında neoimperialist planların reallaşmasına yönəlik cəhdləri intensivləşdirmək niyyətindədirlər.

"Yekaterinburqda Rusiya OMON-u tərəfindən törədilmiş məlum hadisə mənə pantürkizm, panislamizm adı altında bu günə qədər aqibəti bəlli olmayan ziyalılarımızın yox edilməsini xatırlatdı. Biz bununla sənədlərdə gördüyümüz o ağrı-acı dolu hadislərin canlı şahidi olduq. Təkcə soydaşlarımıza deyil, yaxın keçmişdə Özbəkistan, Qazaxıstan, Qırğızıstan türklərinə, ümumiyyətlə türk millətinə qarşı törədilən bu cinayətləri və onun arxasında duranları lənətləyirəm. Bu gün Rusiya vaxtilə "xalqlar həbsxanası" kimi tanınan sovet siyasətini davam etdirmək istəyir".

Bu fikiri açıqlamasında **Türkiyə-Azərbaycan Həmrəylik Vəqfinin rəhbəri, professor Aygün Attar** ifadə edib. O qeyd edib ki, dövlətin əli ilə törədilən, Stalin dövrünü xatırladan və heç bir hüquqi zəmini olmayan bu hadisəyə hansı tərəfdən baxsaq, haqq qazandırmaq mümkün deyil. Bütün bunlar təsadüf deyil. Çünki Rusiya, sözdə və əməldə dəyişkən siyasət nümayiş etdirir. Onların dedikləri ilə əməlləri tamamilə bir-birinə ziddir. İrandakı son hadisələr zamanı vətəndaşlarının Azərbaycandan təhlükəsiz və rahat şəkildə keçidlərinə göstərdiyi dəstəyə görə Rusiya dövlətimizə təşəkkür etdi. Sovet dövründə doğulub-böyüyən bir insan olaraq Rusiya hakimiyyətinin siyasətini çox gözəl bilirəm. Yəni, dövlətin icazəsi olmadan OMON adlanan qurumun bunu etməsi mümkün deyil.

Hadisələrə ardıcıllıqla baxsaq, əvvəlcə Azərbaycan təyyarəsinə qarşı qəza adı ilə bir cinayət törədildi. Azərbaycan Prezidenti İlham Əliyev çox açıq şəkildə bu cinayəti törədənlərin cəzalandırılmasını, Rusiyanın rəsmi şəkildə üzr istəməsini tələb etdi. Lakin bu, fərqli "donlar geyindirilərək" zamanın axarına buraxıldı. Bir neçə ay əvvəl Azərbaycanın informasiya resurslarına qarşı təxribat, kiberhücumlar törədildi və bu da cəzasız qaldı. Azərbaycanda "Rus Evi" adı altında qurulan qurumun kəşfiyyat "servis"inin bir qolu olaraq fəaliyyət göstərdiyi sübut edildi. Bunu etiraf etmək məcburiyyəti qarşısında qalan Rusiya rəsmisi lazımi tədbirlərin görüləcəyini dedi, lakin yenə davamı gəlmədi. Son hadisə də bütün bunların fonunda yaşandı. Bu gün Rusiyanın, necə deyərlər, iqtisadiyyatının əsas sütunu olan azərbaycanlı iş adamları bu ölkəyə güvənərək orada fəaliyyət göstərirlər. Rusiyanın rəsmi rəqəmlərinə əsasən, hazırda üç milyondan artıq azərbaycanlı bu ölkədə yaşayır.

A.Attar Rusiyanın bu gün dili, dini eyni Ukrayna xalqına qarşı yürütdüyü siyasətə baxdıqda son baş verənlərin təəccübü olmadığını vurğulayıb: "Rusiya indi uzun illər, SSRİ dövründə müstəqilliyi əlindən alınan xalqların ailələrinə qarşı törədilən cinayətləri davam etdirmək istəyir. Lakin bu, mümkün deyil. Fikrimcə, bu, "qara" vicdanın davamıdır. Bəli, yanvar ayını azərbaycanlılar üçün "qara yanvar"a çevirən qara vicdanın. Hələ 35 il əvvəl Rusiya qoşunları Azərbaycana, Bakının mərkəzinə girərək milli müstəqilliyi uğrunda mübarizə aparan azərbaycanlıların üzərindən tanklarla keçdilər. Bu hadisənin şahidləri hələ sağdırlar. Xocalı soyqırımını törədənlərin arxasında kimlərin dayandığını da unutmamalıyıq. Bu gün şahid olduqlarımız sovet ideologiyasının davamıdır. Haradan baxsaq, Rusiyanın vaxtilə sovetlərin hakimiyyəti altındakı türkdilli dövlətlərə qarşı amansız münasibətini görmək olar. Burada bir gecədə min cür işgəncələrlə yurd-yuvasında qovulan, insanlıqdan kənar rəftarla qatarlara doldurularaq Vətənlərindən qovulan Krım türklərini unutmamalıyıq. Məsələyə geniş aspektdən baxsaq, bu gün rus alimlərinin də etiraf etdikləri kimi, Rusiyanın hər bölgəsində bir türk mədəniyyəti ilə qarşılaşarıq və Rusiyanın muxtariyyət adı altında müstəqilliklərinə əl qoyduğu türksoylu çoxsaylı xalqlar var.

Burada Azərbaycandakı rus icmasını da unutmaq olmaz. Şəxsən mən bu icmanın da törədilən hadisəni qınamasını gözləyirəm. Çünki Azərbaycan çoxmillətli, tolerant ölkədir və burada müxtəlif xalqların nümayəndələri çox rahat, firavan yaşayırlar. Azərbaycan onların hər birinə qarşı olduqca anlayışlı siyasət yürüdür ki, bu da dünya üçün bir nümunədir".

A.Attar son olaraq vurğulayıb ki, azərbaycanlılara qarşı yönəlmiş bu münasibət həm hüquqi, həm də ictimai səviyyədə cavablandırılmalı, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Eyni zamanda, Rusiyada yaşayan bütün xalqların bərabərhüquqlu yaşamaq haqqı bir daha vurğulanmalıdır.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 1 iyul (№ 131).- S.5.